

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 14-15 (7476-7477) ❋ 1933-cü ildən nəşr olunur ❋ Cümə, 16 mart 2018-ci il. ❋ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***13 mart***

Prezident İlham Əliyev Rumıniyanın Baş nazirinin müavini xanım Ana Birçallı qəbul edib.

Xanım Ana Birçallı Bakıda Respublika Narkoloji Mərkəzində baş vermiş yanğın nəticəsində insanların həlak olması ilə bağlı Rumıniya rəhbərliyi adından və öz adından başsağlığı verib.

Görüşdə Azərbaycan-Rumıniya əlaqələrinin yüksək səviyyəyə çatdığı vurğulanıb, ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığı və əməkdaşlığımızın böyük potensialının olduğu qeyd edilib.

❋ ❋ ❋

Prezident İlham Əliyev Monteneqro parlamentinin sədri İvan Brayoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Monteneqro arasında yüksək səviyyədə əməkdaşlığın mövcud olduğunu qeyd edərək mütəmadi qarşılıqlı səfərlərin əlaqələrin möhkəmlənməsi işinə töhfə verdiyini deyib. Görüşdə bildirilib ki, Azərbaycan ilə Monteneqro müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq həyata keçirir, parlamentlərarası əlaqələr ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır.

***12 mart***

Prezident İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə görüşüb. Görüşdə Azərbaycan - Gürcüstan əlaqələrinin gələcək perspektivləri müzakirə olunub.

❋ ❋ ❋

Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının sədri Georgi Tseretelinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. Martın 13-də ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun ilk beynəlxalq sessiyasının Bakıda keçiriləcəyinin önəmi vurğulanıb və bunun əməkdaşlığın möhkəmlənməsi işinə töhfə verəcəyi bildirilib. Görüşdə, eyni zamanda, ATƏT Parlament Assambleyası sessiyalarından birinin ölkəmizdə təşkil olunacağı məmnunluqla qeyd edilib.

## *Prezident İLHAM ƏLİYEV: "Azərbaycanda inkişaf dayanıqlıdır və uğurludur. Növbəti illərdə Azərbaycan ancaq və ancaq yüksək sürətlə, böyük uğurlarla irəliyə gedəcək."*



# Sosial rifahın yüksəlməsinə hədəflənən iqtisadi islahatlar

Bu gün ölkədə uğurla həyata keçirilən iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan inkişaf etmiş ölkələr sırasında öz yerini böyük inam və qətiyyətlə reallaşdırır. Azərbaycan Dünya İqtisadi Forumunun illik "İnklüziv inkişaf indeksi - 2018" hesabatında inkişaf etməkdə olan ölkələr arasında üçüncü yeri tutub.

Hesabata əsasən, inkişaf etməkdə olan ölkələr indeksində Litva, Macarıstan, Azərbaycan, inkişaf etmiş ölkələr indeksində isə Norveç, İslandiya və Lüksemburq liderlik edirlər.

Azərbaycanın inkişafını təkcə Dünya İqtisadı Forumu deyil, həmçinin beynəlxalq maliyyə qurumları olan Dünya Bankı, Avropa Yenidənqurma və inkişaf Bankı da yüksək qiymətləndirir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35- ci yerdə qərarlaşıb. Qeyd olunmalıdır ki, Azərbaycan uzun illərdir, iqtisadi inkişaf səviyyəsinə görə MDB məkanında liderlik mövqeyini qoruyub saxlayır.

İstənilən ölkənin belə bir reytinq siyahısında mövqelərim yaxşılaşdırması həmin ölkə haqqında dünyanın qeyd edilən dairələrində müsbət rəyin formalaşmasına, beynəlxalq maliyyə və biznes subyektlərinin, o cümlədən qlobal investorların həmin ölkə iqtisadiyyatına diqqətinin artmasına xidmət edir.

Dövlət başçısı İlham Əliyevin iqtisadiyyatın inkişafı üçün başlıca şərt olan qeyri-neft sektorunun inkişafına göstərdiyi diqqət bu gün beynəlxalq səviyyədə etiraf olunmaqla Azərbaycana marağı artırır. Dövlət başçısı hər bir proqram xarakterli çıxışlarında iqtisadi inkişafın yeni mərhələ üzrə istiqamətlərim göstərməklə vurğulayır ki, yalnız düşünülmüş siyasət, qətiyyətli siyasi iradə, xalqla birliyin möhkəmlənməsi sayəsində qarşıya qoyulan möhtəşəm vəzifələrə nail olmaq mümkündür.

Hazırda dövlətin qarşısında duran əsas vəzifələrdən biri mövcud imkan və resursları nəzərə almaqla, ölkədə davamlı iqtisadi artıma və yüksək sosial rifaha nail olmaqdır. Sözügedən hədəflərə nail olmaq məqsədilə bu gün ölkədə çoxsaylı iqtisadı layihələr həyata keçirilməkdədir. Təkcə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əksini tapmış hədəflər deməyə əsas verir ki, 2020-ci ildə Azərbaycan iqtisadi və siyasi cəhətdən inkişaf etmiş, rəqabətqabiliyyətli ölkə olacaq. Azərbaycanın iqtisadi inkişaf baxımından regionun lider dövlətindən beynəlxalq iqtisadi münasibətlər sistemində yüksək rəqabətqabiliyyətli iştirakçı statusuna yüksəlməsi reallaşdırılacaq.

**«Qəbələ»**

## Ölkə başçısının sərəncamına əsasən Qəbələdə modul tipli məktəblər quraşdırılacaq

Prezident İlham Əliyev martın 9-da "Qax, Qəbələ, Oğuz və Şəki rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında" Sərəncam imzalayıb.

Qeyd olunan sərəncamda rayonun Qaradeyn kəndində 80 şagird yerlik tam orta, Laza kəndində 80 şagird yerlik ümumi orta, Şəfli kəndində 20 şagird yerlik və Zərgərli kəndində 56 şagird yerlik ibtidai məktəblərin quraşdırılması öz əksini tapıb.

**"Qəbələ"**